# *“Məktəb, məktəb...” və ya “Getmərəm mən məktəbə...”*

## *Akif MƏMMƏDOV*

Yəqin ki, əvvəlki sözlərini başlığa çıxartdığım misranı çoxlarınız əzbərdən bilir: “Məktəb, məktəb nə dilgüşasan”. Ancaq mən axırıncı sözün sərlövhədə, təbii ki, iri şriftlərlə verilməsinə cəsarət etmədim. Niyə? Aydınlıq üçün bilməyənlərə deyim ki, “dilgüşa” – ürəkaçan deməkdir. Elə isə yazını oxuyan minlərlə şagird, məktəbi yarı-yarımçıq atıb faydalı-faydasız işlər dalınca qaçan uşaqlar mənə gülməzdilərmi? Deməzdilərmi, bu “dilgüşalıq” indiki məktəbin harasındadır? Buz kimi soyuq sinif otaqlarınımı deyirsən? Elmi fənn əvəzinə bizə özünün bazar dərdlərindən dərs deyən müəllimlərimi deyirsən? Bir ildə beş-altı dəfə öz ad gününə “podarka” tələb edən sinif rəhbərlərimizimi deyirsən?...

Ancaq tam ciddi şəkildə düşünməyinə dəyər ki, şagirdlərin məktəbdən yayınma halları (bu proses müəllimlər arasında çoxdan başlanıb) kütləvi hal alıb. Bunu sübut etmək üçün xüsusi statistik hesablamalar aparmaq lazım deyil. Səhər tezdən gecəyə qədər küçələrdə, yol qıraqlarında, bazarlarda xırda alverlə məşğul olan, marşrut avtobuslarında gediş haqqı yığan, tünlük yerlərdə dilənən məktəbyaşlı uşaqları görmək kifayətdir. Uşaqların məktəbdən uzaqlaşmasında məktəbin öz günahları da az deyil.

Bəzi məsələləri xırdalayaq.

Hazırda müəllimlərin, bəlkə də, doxsan faizi ürəkdən keçmədiyini, birtəhər saatını sovduğunu heç kəsdən gizlətmir və açıq-açığına deyir: “Biz verilən əməkhaqqı müqabilində iş görürük”. Valideynlər də məktəbdəki bu vəziyyətdən iki istiqamətdə “bəhrələnirlər”. Dolanışıq səviyyəsi nisbətən aşağı olan valideynlər ya hər şeyi Allah ümidinə buraxır, ya da uşağını “daha faydalı iş” dalınca bazara aparır. İmkanlı valideynlər isə uşağın günün tam yarısını məktəbdə boş yerə itirməsinə dözmür, direktorla “razılaşandan” sonra istədiyi ixtisaslar üzrə qabiliyyətli müəllim tapır. Burda məzənnə dövlətin verdiyi haqdan ən azı on dəfə yüksək olur. Göründüyü kimi, faktik olaraq məktəbdən yayınma yoxdur. Yəni ad jurnalda gedir və bütün sənədləşmə də (yazı işləri, imtahan sənədləri, attestat və s.) qaydasında olur.

Sözsüz ki, məktəbdən yayınanlar arasında qaçqın uşaqları əksəriyyət təşkil edir. Təkcə ona görə yox ki, oxumağa yerləri yoxdur. Ona görə də yox ki, ehtiyac üzündən iş

dalınca gedirlər. Hər şeydən əvvəl ona görə ki, təhsil sahəsində hərc-mərclik və nəzarətsizlikdir. Guya qaçqınlara qayğı göstərmək xatirinə bəzi yerlərdə “qaçqın məktəbləri” deyilən məktəblər açıblar. Nəzərə alsaq ki, qaçqın uşaqların heç on faizi də həmin məktəblərdə oxumur, bu “ürəkyananlığ”ın nə qədər saxta olduğu aydınlaşar. Pedaqoji ictimaiyyət arasında “qaçqın məktəbləri”ndəki saxtakarlıqlar haqqında söz-söhbətlər də artıq adi hal alıb. Çox vaxt siyahı tərtib olunur, siniflər açılır, müəllimlər təyin olunur, ştat-filan öz qaydasında, ancaq işin heç əlli faizi də yoxdur. Elə buradaca qaçqın şagirdin məktəbdən yayınmasına da şərait yaradılır; rayonda yaşayan uşağın adı şəhərdəki qaçqın məktəbində və ya şəhərdəki uşağın adı kənddəki məktəbdə gedir.

... Amman nəzərə alaq ki, qanuna görə, bizdə təhsilin əsas pilləsi icbaridir, yəni məcburidir və bu qanunun icrasına nəzarət edən və cavabdehlik daşıyan böyük bir nazirliyimiz var...

***“Azadlıq” qəzeti, 25 dekabr, 1995***